# Gözəl səsli qızın hekayəsi

## Günay Mehdiyeva: “Seçdiyim yol qadın xanəndələrdən xanım-xatınlıq tələb edir”



**“Gəncik qəzeti”-nin ötən sayında Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin ”Solo oxuma” fakültəsindən reportaj hazırlamışdıq. Dərs prosesinə qonaq olarkən istedadlı gənc xanəndə Günay Mehdiyeva diqqətimizi çəkdi. Onun ifası bir anlıq bizi-bizdən aldı. Qərara gəldik ki, qəzetimizin bu dəfəki sayında ”Solo oxuma və muğam sənəti” ixtisasının I kurs tələbəsi olan Günayla söhbət edək.**

**Xəyalə Rəis**



Günay Mehdiyeva 1992-ci il aprelin 11-də Zəngilan rayonunda dünyaya gəlib. 1993-cü ildə məcburi köçkün kimi Bakıya pənah gətiriblər. 20 ilə yaxın ailədə 4 nəfər olmaqla Azərbaycan Neft Akademiyasının yataqxanasında məskunlaşıblar. İki il bundan öncə isə Masazırda yenicə salınmış Zəngilan şəhərciyinə köçüblər. Valideynləri onu həkim kimi görmək istəsə də, gənc ifaçını heç nə fikrindən döndərə bilməyib. O, arzularının ardınca qaçaraq istədiyinə nail olmağı bacarıb.

**- Necə oldu ki, səsinizin olduğunu hiss etdiniz?**

- Uşaq vaxtı öz-özümə zümzümə edirdim. 33 nömrəli Zəngilan məktəbində təhsil aldığım illərdə musiqi dərsində çıxıb estrada mahnıları oxuyurdum. Anam mənə ”Ana” mahnısını öyrətmişdi. Tez-tez o mahnını ifa edirdim. Mütləq şəkildə dərs başlayanda və bitəndə müəllim məni hər dəfə oxutdururdu. 10-cu sinfə qədər musiqi dərslərində fəal iştirak etdim. Musiqiyə böyük həvəsim vardı. Ancaq valideynlərim məni musiqi məktəbinə yazdırmırdılar. Onlar mənim ifaçı olmağıma qarşı idilər. Atam istəyirdi ki, həkim olum. Mənim isə həkimlik sənətinə həvəsim yox idi. 10-cu sinifdə oxuyarkən sinif yoldaşlarımla Hüseynqulu Sarabski adına mədəniyyət evinə gedirdik. Onlar aktyorluq kursuna yazılmışdılar. Valideynlərim də məni 4-cü qrup ixtisaslarına yiyələnmək üçün kursa göndərmişdilər. Mən də gedib sənədlərimi gizlicə ansambla yazdırmışdım. Orada Rövşən müəllimə yaxınlaşıb səsimin olduğunu dedim. Səsimi dinləyib bəyəndi. Mənə bildirdilər ki, valideynlərimi gətirim, onlarla danışsınlar və mən onların da icazəsi ilə tədbirlərdə iştirak edim. Mən də evə gəlib valideynlərimdən mədəniyyət evinə getmələrini xahiş etdim. Onlar razılıq vermədilər. Bir həftə bunun üçün ağladım. İfaçılıq sənətinə içimdə böyük bir həvəs vardı. Valideynlərimi güclə də olsa, razı saldım. Ancaq bu dəfə də ansamblın rəhbəri mədəniyyət evində olmadı. Orada Nəzakət adlı müəllimə muğam dərsi keçirdi. O, mənim səsimi yoxladı. Mənə bir parça muğam oxutdurdu. Mənimsə muğama həvəsim yox idi. Evdə valideynlərim muğama qulaq asanda mən kanalı dəyişirdim. Demirəm ki, muğamı sevmirdim, xeyr. Sadəcə olaraq muğama marağım yox idi. Nəzakət müəllimə məni oxutduranda gördüm ki, muğam mənim səsimdə daha yaxşı alınır. Valideynlərim dedi ki, əgər bu sənətin arxasınca getmək istəyirsənsə, yalnız və yalnız muğam sənətini seçəcəksən. 6 ay həmin mədəniyyət evinə getdim.

Daha sonra 2010-cu ildə Asəf Zeynallı adına musiqi kollecinə qəbul oldum. Buradakı uşaqların çoxu musiqi məktəbindən gəlmişdilər. Onlar 7 il musiqi təhsili aldıqları halda, mən bir il yarım müəllim yanında hazırlaşmışdım. Səsimi dinləyənlər deyirlər ki, sanki illərdir muğam oxuyursan. 5 illik proqramı il yarıma öyrəndim. Asəf Zeynallı adına kollecinə qəbul olmamışdan əvvəl Həzi Aslanov adına, Mərdəkan rayon və Hüseynqulu Sarabski adına mədəniyyət evlərinin tədbirlərində iştirak etmişəm. 11 saylı musiqi məktəbinin təşkilatçılığı ilə ansambl şəklində rəqqaslarla birlikdə 50 nəfər heyətlə İspaniyaya getdik. Orada müxtəleif ölkələrin mədəniyyət günləri keçirilirdi. Bu tədbir bir növ festival şəklində hazırlanmışdı. Orada ”Qarabağ şikəstəsi” və digər muğamları ifa etdik. Festivalda Afrikadan, Portuqaliyadan, Misirdən və dünyanın müxtəlif ölkələrindən incəsənət nümayəndələri iştirak edirdi. Bundan başqa, ”Qarabağ bülbülləri” ansamblında çıxış etmişəm.



**- Asəf Zeynallı adına musiqi kollecində kimlərlə tanış oldunuz?**

- Orada ilk ili Arif Babayevdən dərs aldım. Daha sonra Arif müəllimi yaşına görə kollecdən çıxartdılar. Bizi Qəzənfər Abbasovun sinfinə saldılar. Mən nə öyrənmişəmsə Qəzənfər müəllimdən öyrənmişəm. O, çox istedadlı müəllimdir. Öz şagirdi muğamı mənimsəməsə, ondan əl çəkmir. Kollecimizin bütün tədbirlərində iştirak etmişəm. Nəhayət, 2015-ci ildə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin ”Solo oxuma və xanəndəlik” ixtisasına qəbul oldum.

**- Gələcək üçün hədəflərinizi müəyyənləşdirmisiniz?**

- Daim irəli getmək istəyirəm. Şükürlər olsun ki, səsim yerindədir. Şans da bu məsələlərdə böyük rol oynayır. Bizim sahədə dəstəyə də ehtiyac var. Mən hər şeyi Allahdan istəyirəm. Çalışıram ki, hər şeyə öz gücümə nail olum. Müsabiqələrə qatılıb öz layiqli yerimi tutmaq istəyirəm.

**- Sizcə, bu işdə dəstək nə dərəcədə önəmlidir?**

- Dəstək çox şeyi həll edir. Ümumiyyətlə, insanı tərifləyəndə o bir az həvəslənir. Daha da ürəkdən, var gücü ilə işləməyə başlayır. Mənə səhvlərimi deyəndə onun üzərində daha çox işləyirəm. Valideynlərim hər zaman mənə dəstək olublar. İndiyə qədər heç kim məni kiməsə tapşırmayıb və tapşırtmayıb. Bir dəfə xalq artistimiz Mənsum İbrahimov məni ”Gəncləşən muğam” layihəsinə daxil edib və onların konsertində iştirak etmişəm. Biz orada beşlik şəklində oxuyurduq. Çox gözəl kollektiv var idi. Hər zaman da demişəm ki, bu əziyyətinə görə Mənsum müəllimə minnətdaram.

**- Ailədə səndən başqa incəsənətlə məşğul olan varmı?**

- Xeyr. Dayım rəssamlığı oxuyub. Bizim ailədə musiqiçi yoxdur.



**- Bir çox ailələrdə qızların incəsənət sahəsinə getməsinə bir qədər qəribə baxırlar. Olubmu ki, qınaqlarla üzləşmisiniz?**

- Çox olub. İndi də mənimlə danışanda deyirlər ki, dərsə başıaşağı getgəl, heç kim sənin haqqında söz deməsin. Onları da qınamıram. Onlar toylarda, el şənliklərində bəzi xanəndələri görürlər. Hansı ki, onlar özlərini heç də yaxşı aparmırlar. Elə hesab edirlər ki, mən də onların sıralarına qoşulacağam. Ancaq şükürlər olsun ki, valideynlərim mənə inanırlar. Bilirlər ki, mən öz yolumdan heç vaxt dönmərəm. Seçdiyim yol qadın xanəndələrdən xanım-xatınlıq tələb edir.

**- Gələcəkdə toylara getməyi fikirləşirsiniz?**

- Qız ifaçılarla bəzən xınayaxdılara gedirəm. Ancaq toyxanaya gedib toy mahnıları ifa etmirəm. Bunu özümə yaraşdırmıram. Bəzən toylara gedəndə görürəm ki, müğənni həm estrada, həm də muğam janrında ifa edir. Bütün janrlarda özünü yoxlayır. Əgər məcbur qalaramsa, gələcəkdə toylara gedərəm.

**- Yəqin bu sənəti seçəndə bilirdiniz ki, muğam sənəti gəlirli sahə deyil.**

- Əlbəttə bilirdim. Mən bu sənəti pula görə seçməmişəm. Özümü başqa sahədə görə bilmirəm. Hətta nənəm gözümün qabağında ağlayıb ki, həkimlik sahəsi üzrə gedim. Ancaq içimdə heç bir sənətə maraq olmayıb. Mən muğam oxuyanda deyirlər ki, sən ürəkdən oxuyursan. Mən bu sənəti özüm sevib seçmişəm. Ona görə də mahnı ifa edəndə ürəklə ifa edirəm.

**- Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrına gedirsinizmi?**

- Əlbəttə gedirəm. Teatra gedib dəfələrlə ”Leyli və Məcnun”, ”Əsli və Kərəm”, ”Arşın mal alan” tamaşalarını izləmişəm.

**- Özünüzü o səhnədə görürsünüz?**

- Şübhəsiz. Xanəndələrin arzusudur ki, bir gün Opera və Balet Teatrının səhnəsinə çıxsın.